

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

17 sentyabr 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 35 (3798)

# Sülh yaradan lider

***Hər bir xalqın tarixində böyük mübarizənin, itkilərin və milli iradənin rəmzi sayılan günlər var. 2023-cü ilin sentyabrın 20-də keçirilən antiterror tədbirləri də Azərbaycan üçün belə tarix yaratdı. O gün ölkəmizin bütün ərazisində dövlət suverenliyi bərpa edildi və bununla da uzun illər davam edən münaqişənin səhifəsi bağlandı.***



## Prezidentin uzaqgörən siyasəti Azərbaycanın gücünü artırıb

44 günlük Vətən müharibəsindən ötən altı ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işləri aparılıb. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşü davam edir, şəhər və kəndlər yenidən qurulur, yollar, məktəblər, xəstəxanalar, yaşayış məntəqələri salınır. İllərlə xəritədə yalnız adı qalan yaşayış məntəqələrinə həyat qayıdır.

Bir əsrə sığacaq bu tarixi uğurun arxasında heç şübhəsiz ki, Prezident İlham Əliyevin qətiyyəti, güclü siyasi iradəsi, diplomatik məharəti dayanır. Prezident İlham Əliyevin hələ müharibədən əvvəl icrasına başladığı bir sıra iri layihələrin əhəmiyyəti zaman keçdikcə daha aydın görünür.

Vaxtilə gələcəyə hesablanmış addımlar kimi qiymətləndirilən həmin layihələr bu gün Azərbaycanın iqtisadi və siyasi imkanlarına ciddi təsir göstərir.

Bunun ən aydın nümunələrindən biri enerji siyasətidir. Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP-ı birləşdirən Cənub Qaz Dəhlizinin ərsəyə gəlməsi uzun illər, böyük sərmayə və çoxsaylı ölkələrlə razılaşmalar tələb edib. Layihə həyata keçirilərkən dünyada bugünkü mənzərənin yaranacağını əvvəlcədən dəqiq təsəvvür etmək çətin idi.

Rusiya ilə Ukrayna arasında davam edən müharibə Avropanın enerji təhlükəsizliyi məsələsini daha da aktuallaşdırdı. Yeni və etibarlı mənbələrə ehtiyac artdı. Belə bir vaxtda illər əvvəl yaradılmış enerji infrastrukturu Azərbaycanın imkanlarını genişləndirdi. Hazırda Azərbaycan qazını alan ölkələrin sayı 16-ya çatıb. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan boru kəmərləri vasitəsilə qaz tədarük etdiyi ölkələrin sayına görə dünyada birinci yerdədir.

Oxşar mənzərəni nəqliyyat sahəsində də görmək mümkündür. Dünyanın müxtəlif bölgələrində baş verən müharibələr, siyasi qarşıdurmalar və ənənəvi ticarət yollarında yaranan problemlər daha təhlükəsiz və səmərəli marşrutlara ehtiyacı artırıb. Bu şəraitdə Orta Dəhlizin əhəmiyyəti xeyli yüksəlib.

Çindən gələn yüklərin Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya çatdırılması üçün formalaşdırılan bu yolun mühüm hissəsi Azərbaycandan keçir. Ölkədə illər ərzində yaradılan liman, dəmir yolu və digər nəqliyyat infrastrukturu indi həmin marşrutun imkanlarını artırır. Qarabağ münaqişəsinin başa çatması regionun nəqliyyat xəritəsinin dəyişməsi üçün də yeni şərait yaradıb. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz quru bağlantısının yaradılması bu baxımdan mühüm əhəmiyyət daşıyır. 2025-ci ildə Vaşinqtonda Azərbaycan və Ermənistan rəhbərlərinin ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzaladıqları sənədlərdən sonra TRIPP marşrutu ilə bağlı proses də yeni mərhələyə keçib.

Bu gün de-fakto mövcud olan sülh, regiondan keçən dəhlizlər üzərindən əməkdaşlıq imkanlarını Azərbaycan öz gücü ilə təmin edib. Məhz Azərbaycan Prezidentinin siyasi qətiyyəti nəticəsində bütövlükdə Cənubi Qafqazda onilliklər boyu davam edən münaqişə artıq tarixə qovuşub.

# Türk dünyasında təhlükəsizlik naminə birgə əməkdaşlıq

### TDT ölkələrinin daxili işlər nazirləri Astanada mühüm sənədlər imzalayıblar

Sentyabrın 10-da daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun başçılıq etdiyi nümayəndə heyəti Qazaxıstan Respublikasının Astana şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin daxili işlər nazirlərinin üçüncü iclasında iştirak edib.

*(Ardı 2-ci səhifədə)*

# Arzudan xidmətə uzanan yol

### Gənc polis əməkdaşının peşə yolunun ilk addımları

Polis Akademiyasına qəbul olunan hər bir gənc üçün bu mərhələ yalnız ali təhsil almaq deyil, eyni zamanda məsuliyyətli və şərəfli xidmət yolunun başlanğıcıdır. Burada əldə edilən nəzəri biliklər, intizam, fiziki hazırlıq və peşə vərdişləri gələcək polis əməkdaşının formalaşmasında mühüm rol oynayır.

Məzun olduqdan sonra isə həmin bilik və bacarıqlar real xidmət şəraitində tətbiq edilir.

*(Ardı 3-cü səhifədə)*

# Prezident naziri qəbul edib

### Strateji müttəfiqliyin perspektivləri müzakirə olunub

Prezident İlham Əliyev sentyabrın 15-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib. Görüşdə Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi, əməkdaşlığın “bir millət, iki dövlət” prinsipi əsasında daha da möhkəmləndiyi vurğulanıb. Tərəflər enerji və logistika sahələrində əməkdaşlıq, regional məsələlər və ikitərəfli əlaqələrin perspektivləri barədə fikir mübadiləsi aparıblar.

# Birliyə çağırış

### Müsəlman aləmi vahid bir ailə kimi birləşsin

“Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın”.

Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvləri və digər dini nümayəndələrdən ibarət heyəti qəbul edərkən belə deyib. Dövlətimizin başçısı bu məqsədə yalnız müştərək səylərlə nail olmağın mümkünlüyünü vurğulayıb.

# İnnovasiya şəhərciyi açılıb

### Tələbələr burada tədris və praktiki fəaliyyətə cəlb ediləcəklər

Prezident İlham Əliyev sentyabrın 14-də Bakıda Yüksək Texnologiyalar Parkında yaradılan “SABAH.city” innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib. Şəhərcikdə Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları və tətbiqi elmlər üzrə təhsil alan 1500-dən çox tələbəsinin fəaliyyət göstərməsi nəzərdə tutulur. “SABAH.city”də ASAN Süni İntellekt Mərkəzi də yaradılıb.

# Mükafat Qarabağın dirçəlişinə yönəldiləcək

### Prezident bununla bağlı qərar verib

Sentyabrın 14-də Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam Prezident İlham Əliyevə “Zayed İnsan Qardaşlığı Mükafatı”nın sertifikatını təqdim edib. Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması istiqamətində göstərdiyi səylərə görə 2026-cı il üzrə bu mükafata layiq görülüb. Prezident mükafat üçün nəzərdə tutulan 500 min ABŞ dollarının Qarabağ Dirçəliş Fonduna köçürülməsi barədə qərar qəbul edib.

**Suverenliyə aparan 23 saat** 2



**Gənc kursantlar “Polis Andı” içdilər** 3



**Səs də iz buraxır** 4



**Polisin silah arsenalı** 4



# Respublika Xəbərləri

### Əhalinin gəlirləri artıb

Azərbaycanda əhalinin nominal gəlirləri bu ilin yanvar-avqust aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,4 faiz artaraq 63 milyard 511,3 milyon manat olub. İlk yeddi ayda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı isə 7,2 faiz artaraq 1 176,7 manata çatıb.

### Şəhid övladları Şuşa və Xankəndiyə səfər edib

Şəhid övladları üçün Şuşa və Xankəndi şəhərlərinə ekskursiya təşkil olunub. “Onlar bizə əmanətdir” layihəsi çərçivəsində keçirilən səfər zamanı uşaqlar Xankəndidə Zəfər Parkı, Qarabağ Universiteti və şəhərin digər görməli yerlərini, Şuşada isə Cıdır düzü, Şuşa qalası və Yuxarı Gövhər ağa məscidini ziyarət ediblər.

### Azərbaycan-Meksika əlaqələri genişlənir

Azərbaycan-Meksika münasibətləri siyasi, parlamentlərarası və iqtisadi sahələrdə inkişaf edir. Tərəflər ticarət, investisiya, turizm, enerji və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün imkanları dəyərləndiririlər.

### Xocavəndə növbəti köç

“Böyük Qayıdış” proqramı çərçivəsində Xocavənd şəhərinə, Qırmızı Bazar qəsəbəsinə və Quzeyxırman kəndinə növbəti köç həyata keçirilib. Bu mərhələdə Xocavəndə 33 ailə – 135 nəfər, Qırmızı Bazara 9 ailə – 44 nəfər, Quzeyxırmana isə 8 ailə – 41 nəfər köçürülüb. Ümumilikdə 50 ailə olmaqla 220 nəfər doğma yurduna qayıdıb.

### Xəzərdən Qara dənizə qədər əməkdaşlıq

Xəzər və Qara dəniz hövzələrinin nəqliyyat-logistika imkanlarının genişləndirilməsi məqsədilə region limanları arasında əməkdaşlığın gücləndirilməsi müzakirə olunub. 2026-cı ilin ilk 8 ayında Bakı Limanı ilə Türkmənistan limanları arasında yük dövriyyəsi 34,6 faiz, Qazaxıstan limanları ilə isə 6 faiz artıb.

### Minalardan təmizləmə davam edir

Ötən həftə işğaldan azad edilmiş ərazilərdə 19 tank əleyhinə mina, 113 piyada əleyhinə mina və 426 digər partlayıcı hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Bu müddətdə 1 348,9 hektar ərazi minalardan təmizlənib.

### Valyuta ehtiyatlarımız artıb

Azərbaycanın strateji valyuta ehtiyatları sentyabrın 1-nə 90 milyard 769,7 milyon dollar təşkil edib. Bu göstərici ötən ilin eyni tarixi ilə müqayisədə 15,7 faiz artıb.

### Yeni məktəblər istifadəyə veriləcək

Yeni tədris ilindən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən təhsil müəssisələrinin sayının 52-yə çatdırılması nəzərdə tutulur. Ölkənin digər bölgələrində də 43 yeni ümumi təhsil müəssisəsinin fəaliyyətə başlaması planlaşdırılır.

### Yeni ticari hədəf

Azərbaycan və Özbəkistan arasında qarşılıqlı ticarətin aktivləşdirilməsi məqsədilə informasiya platforması hazırlanır. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi 800 milyon dolları ötüb və tərəflər bu göstəricini 1 milyard dollara çatdırmağı hədəfləyirlər.

### Bakıda 65 küçə yenilənib

Yeni tədris ili öncəsi Bakının mərkəzi hissəsində 65 küçə və prospektdə təmir işləri yekunlaşdırılıb. Ümumilikdə 110 küçə və prospektin yenilənməsi nəzərdə tutulur.

### Xarici investisiyada müsbət dinamika

Bu ilin ilk yarısında Azərbaycandan xaricə yönəldilən birbaşa investisiyaların 3,2 milyard dolları İtaliyanın payına düşüb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 309,4 dəfə artıb. Xaricə investisiya qoyuluşunda Türkiyə, Böyük Britaniya, BƏƏ və Gürcüstan da əsas istiqamətlər sırasında yer alıb.

### Yaşıl enerji dəstəklənir

“BP” Cəbrayıl rayonunda “Şəfəq” Günəş-Elektrik Stansiyasının tikintisi ilə yanaşı, Azərbaycanda bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində yerli mütəxəssislərin inkişafına dəstək verir. Yeni layihə çərçivəsində 20 yerli mütəxəssis “Təlimçinin Təlimi” proqramına cəlb olunacaq. Bir il davam edəcək və 49 min dollar dəyərində olan layihə beynəlxalq təcrübə əsasında yerli təlimçilərin hazırlanmasına və bərpaolunan enerji sahəsində yerli potensialın gücləndirilməsinə yönəlib.

# Türk dünyasında təhlükəsizlik naminə birgə əməkdaşlıq

## TDT ölkələrinin daxili işlər nazirləri Astanada mühüm sənədlər imzalayıblar






*(Əvvəli 1-ci səhifədə)*

İclasda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin daxili işlər nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsi, cinayətkarlığa, o cümlədən ekstremizmə, insan alverinə, informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərə, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiyaya qarşı mübarizə sahəsində birgə mübarizə tədbirləri müzakirə edilib. Cinayət təqibindən yayınan şəxslərin axtarışında və itkin düşmüş vətəndaşların yerinin müəyyən edilməsində əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirilib.

Tədbir zamanı TDT-yə üzv və müşahidəçi dövlətlər arasında Cinayətkarlıqla Mübarizə Şurasının yaradılması haqqında Saziş layihəsi də müzakirə olunub.

Tədbirdə tərəflər Türk Dövlətləri Təşkilatı daxili işlər nazirlərinin üçüncü toplantısının Bəyannaməsini imzalayıblar.

İclasın yekununda TDT-yə üzv dövlətlərin daxili işlər nazirlərinin 4-cü görüşünün 2027-ci ildə Türkiyə Respublikasında keçirilməsi barədə qərar qəbul edilib.

Görüş çərçivəsində Azərbaycan və Qırğız respublikalarının daxili işlər nazirləri “Cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”i imzalayıblar.

# Suverenliyə aparan 23 saat

## Antiterror tədbirləri yeni tarixi mərhələnin əsasını qoydu

Azərbaycanın müstəqillik tarixində elə hadisələr var ki, onların əhəmiyyəti baş verdiyi dövrlə məhdudlaşmır, dövlətçilik salnaməsinin mühüm səhifəsi kimi gələcək nəsillərin yaddaşında yaşayır. 2023-cü il sentyabrın 19–20-də Qarabağ iqtisadi rayonunda keçirilmiş lokal xarakterli antiterror tədbirləri də belə tarixi hadisələrdəndir. Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazisində dövlət suverenliyi tam bərpa olundu. Cəmi 23 saat davam edən əməliyyat qarşıya qoyulan vəzifələrin yüksək peşəkarlıq və qətiyyətlə yerinə yetirilməsi ilə nəticələndi. Bununla da Azərbaycanın ərazi bütövlüyünün bərpasından sonra dövlət suverenliyinin bütün ölkə ərazisində təmin olunması istiqamətində tarixi mərhələ başa çatdı. Antiterror tədbirlərindən sonra təhlükəsizlik sahəsində yeni mərhələ başlandı. Dövlət idarəçiliyinin bərpası, ictimai asayişin təmin olunması, insanların təhlükəsizliyinin qorunması və normal həyat şəraitinin yaradılması qarşıda duran əsas vəzifələrə çevrildi. Beləliklə, hərbi əməliyyatın başa çatması ilə yeni və məsuliyyətli xidmət dövrünün əsası qoyuldu.





### ►*Xidmətdə nümayiş etdirilən fədakarlıq*

Həmin günlərdə Daxili İşlər Nazirliyinin polis və hərbi qulluqçuları da qarşıya qoyulan tapşırıqların icrasında iştirak etdilər. Yüksək döyüş hazırlığı, intizam və qətiyyət nümayiş etdirən hərbi qulluqçular üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirdilər. Antiterror tədbirləri zamanı şəhid olan daxili işlər orqanlarının əməkdaşlarının xatirəsi bu gün də dərin ehtiramla yad edilir.

### ►*Vətən qarşısında müqəddəs borc*

Bu hadisələr bir daha göstərdi ki, daxili işlər orqanlarının fəaliyyəti yalnız gündəlik ictimai asayişin qorunması ilə məhdudlaşmır. Zərurət yarandıqda polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları dövlətin təhlükəsizliyinin və ərazi bütövlüyünün müdafiəsi naminə ən çətin vəzifələrin icrasına hazırdırlar.

Antiterror tədbirləri zamanı canından keçən hər bir hərbi qulluqçu və polis əməkdaşının həyat yolu Vətənə sədaqətin, xidməti borca bağlılığın və dövlət qarşısında məsuliyyətin nümunəsidir. Onların göstərdikləri qəhrəmanlıq Azərbaycanın müasir tarixində xüsusi yer tutur.

Bu Zəfərin arxasında dayanan şəhidlərin fədakarlığını və əməliyyat iştirakçılarının şücaətini daim ehtiramla xatırlamaq mənəvi borcumuzdur.

### ►*Azad ərazilərdə yeni xidmət mərhələsi*

Antiterror tədbirlərinin başa çatması ilə təhlükəsizliyin təmin olunması istiqamətində yeni reallıqlar yarandı. Dövlət suverenliyinin tam bərpa olunduğu ərazilərdə davamlı sabitliyin və təhlükəsizliyin təmin edilməsi qarşıda mühüm vəzifələr müəyyənləşdirdi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işləri, bərpa edilən yaşayış məntəqələri, yaradılan müasir sosial infrastruktur, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı sabitlik şəraitində baş tutur.

Deməli, Böyük Qayıdışın uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri də etibarlı təhlükəsizlik mühitinin təmin olunmasıdır.

Daxili İşlər Nazirliyinin polis və hərbi qulluqçuları azad edilmiş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin olunması, cinayətkarlığa qarşı mübarizə, mühüm obyektlərin mühafizəsi və vətəndaşların təhlükəsizliyinin qorunması istiqamətində üzərlərinə düşən vəzifələri əzmlə yerinə yetirirlər.

Doğma yurdlarına qayıdan insanların özlərini təhlükəsiz hiss etməsi, ailələrinin və əmlaklarının qorunduğuna əmin olması, gündəlik həyatlarını rahat şəkildə davam etdirmələri Böyük Qayıdışın mühüm şərtlərindəndir. Bu baxımdan azad ərazilərdə xidmət aparan polis əməkdaşları üzərlərinə düşən xüsusi məsuliyyəti aydın dərk edirlər.

Ona görə də, onlar qanunçuluğun və ictimai asayişin təmin olunması ilə yanaşı, yeni həyatın qurulduğu ərazilərdə sabitliyin qorunmasına da mühüm töhfə verirlər.

### ►*Zəfərin məsuliyyəti*

Beləliklə, 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyinin tam bərpa olunması ilə ölkənin müasir tarixində yeni mərhələnin əsasının qoyulması və bu tarixi nailiyyətin nəticələrinin qorunması dövlət qarşısında duran mühüm vəzifələrdən birinə çevrildi. 2024-cü ildə sentyabrın 20-nin Azərbaycan Respublikasında “Dövlət Suverenliyi Günü” elan edilməsi həmin hadisənin dövlətçilik tariximizdəki əhəmiyyətinin daha bir ifadəsi oldu.

Antiterror tədbirlərinin ildönümü uğurla başa çatmış hərbi əməliyyatdan daha artıq məna verir. Bu, uzun illər qarşıda duran tarixi məqsədin reallaşması, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bütün ölkə ərazisində bərqərar olması və dövlət qurumlarının həmin ərazilərdə fəaliyyətinin təmin edilməsi deməkdir. Antiterror tədbirlərində qarşıya qoyulan tapşırıqları yerinə yetirən, bu yolda şəhid və yaralı olan Daxili Qoşunların hərbi qulluqçuları və polis əməkdaşları Vətənə xidmətin yüksək nümunəsini göstərdilər.

Bu gün həmin xidmət azad ərazilərdə ictimai asayişin qorunması, təhlükəsizliyin təmin edilməsi və insanların doğma torpaqlarında əmin-amanlıq şəraitində yaşamasına xidmət edən fəaliyyətlə davam etdirilir.

Bu nailiyyətin qorunması və gələcək nəsillərə ötürülməsi dövlət qurumlarının, o cümlədən daxili işlər orqanlarının qarşısında mühüm vəzifələr müəyyənləşdirir.

Bu vəzifələrin əsasında dəyişməz prinsiplər dayanır - dövlətin təhlükəsizliyi, vətəndaşın əmin-amanlığı və qanunun aliliyi.

***A.Tahirova***

# Gənc kursantlar “Polis Andı” içdilər

## Polis Akademiyasında yeni tədris ili təntənəli mərasimlə başlayıb






Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris ilinin başlanması ilə əlaqədar I kurs kursantlarının “Polis Andı”nı qəbul etmələri münasibətilə təntənəli mərasim keçirilib.

Tədbirin əvvəlində torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan igid oğullarımızın, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Mərasimdə çıxış edənlər yeni qəbul olunmuş kursantlara təhsil və təlim prosesində uğurlar arzulayıb, onlara dövlətimizin və Azərbaycan Polisinin adını daim uca tutmağı, bilik və bacarıqlarını, peşəkar və fiziki hazırlıq səviyyələrini davamlı şəkildə inkişaf etdirməyi tövsiyə ediblər.

Mərasim I kurs kursantlarının “Polis Andı”nı qəbul etmələri ilə davam edib. Sonda şəxsi heyət təntənəli keçidlə tribunanın qarşısından keçib.

# Arzudan xidmətə uzanan yol

## Gənc polis əməkdaşının peşə yolunun ilk addımları

*(Əvvəli 1-ci səhifədə)*

Bu yolu keçən gənc əməkdaşlardan biri də Qaradağ Rayon Polis İdarəsinin 10-cu Polis Bölməsinin əməliyyat müvəkkili, polis leytenantı, Akademiyanın 2026-cı il məzunu Seymur Abduləzizovdur. S.Abduləzizovun polis peşəsinə marağı uşaqlıq illərindən formalaşıb. Onun sözlərinə görə, illər keçdikcə bu maraq daha da möhkəmlənib və dövlətə, cəmiyyətə xidmət etmək istəyi gələcək peşə seçimini müəyyənləşdirib.

“Polis Akademiyasına qəbul olmaq qərarını öz istəyimlə vermişəm. Uşaqlıqdan polis peşəsinə marağım olub və zaman keçdikcə bu maraq daha da artıb. Dövlətə və cəmiyyətə xidmət etmək mənim üçün həm böyük məsuliyyət, həm də şərəfdir”, – deyə o bildirib. 2022-ci ildə Polis Akademiyasına qəbul olunan S.Abduləzizov dörd il sonra artıq polis əməkdaşı kimi xidmətə başlayıb.

### *Təhsil illərində formalaşan peşəkar baxış*

Polis Akademiyasında təhsil aldığı illər onun üçün yalnız hüquqi və peşə biliklərinin əldə edildiyi dövr olmayıb. Bu mərhələ həm də intizamın, məsuliyyətin, səbrin və çətin vəziyyətlərdə düzgün davranmaq bacarığının formalaşmasına xidmət edib. S.Abduləzizov Akademiyada təhsil aldığı illərdə peşəkar hazırlığının formalaşmasında Akademiyanın pedaqoji kollektivinin mühüm rol oynadığını bildirir.

“Peşəkar müəllim və zabit heyətindən çox şey öyrəndim, yaxşı yoldaşlar qazandım. İntizamlı olmağı, məsuliyyət daşımağı və çətinliklərə səbirli yanaşmağı öyrəndim. İndi düşünürəm ki, Akademiyada keçirdiyim illər mənim üçün unudulmaz təcrübə olub”, – deyə gənc əməkdaş qeyd edib.

Bu il Akademiyanı bitirdikdən sonra onun həyatında yeni mərhələ başlayıb. Əməliyyat müvəkkili kimi xidmətə başlayan S.Abduləzizov bu sahəni təsadüfən seçmədiyini deyir. Cinayətlərin qarşısının alınması və açılmasında iştirak etmək, müxtəlif situasiyalarda düzgün və çevik qərar qəbul etmək onun üçün əməliyyat xidmətinin əsas xüsusiyyətlərindəndir. “Akademiyanı bitirdikdən sonra əməliyyat müvəkkili kimi işləmək mənim üçün həm böyük qürur, həm də ciddi məsuliyyətdir. Cinayət-axtarış xidmətində hər gün fərqli vəziyyətlə qarşılaşırsan. Daim düşünmək, düzgün qərar vermək, səbirli və diqqətli olmaq lazımdır. Buna görə əməliyyatçı peşəsini sadəcə iş kimi yox, məsuliyyətli və şərəfli xidmət kimi görürəm.”

### *Akademiyada öyrənilənlər xidmətdə tətbiq olunur*

Polis Akademiyasında qanunvericilik, hüquqi biliklər və müxtəlif situasiyalarda davranış qaydaları öyrədilir. Real xidmət zamanı isə həmin biliklərin konkret vəziyyətlərdə düzgün tətbiqi əsas əhəmiyyət daşıyır. “Akademiyada polis peşəsinin hüquqi və nəzəri əsaslarını, düzgün qərar verməyi, qanunvericiliyə riayət etməyi və müxtəlif situasiyalarda necə davranmağı öyrəndim. Akademiya təməl yaradır, real xidmət isə həmin təməl üzərində peşəkarlığı formalaşdırır”, – deyə müsahibimiz bildirib.

Əməliyyat müvəkkilinin gündəlik fəaliyyəti də bu dinamika üzərində qurulur. Daxil olan məlumatların araşdırılması, zəruri məlumatların yoxlanılması, əməliyyat tədbirlərində iştirak və hadisə yerlərinə baxış xidmətin əsas istiqamətləri sırasındadır.

Bəzi hallarda nəticəyə çatmaq üçün uzunmüddətli və səbirli fəaliyyət, bəzi hallarda isə qısa vaxt ərzində düzgün qərar qəbul etmək tələb olunur. Gənc əməkdaş üçün xidmətin ilk günləri xüsusilə yadda qalıb. Akademiyada mənimsədiyi bilikləri real hadisələr zamanı tətbiq etməsi onun polis əməkdaşı kimi məsuliyyəti daha aydın hiss etdiyi mərhələ olub.

“Xidmətə ilk başlayanda məni ən çox düşündürən o idi ki, artıq Akademiyada öyrəndiklərimi real həyatda tətbiq etməliyəm. İşlədikcə, təcrübə topladıqca özümə inamım daha da artdı.

Polis əməkdaşı olmağımın məsuliyyətini vətəndaşlarla ünsiyyət quranda, cinayətlərin qarşısının alınması və açılmasında iştirak etdikdə daha güclü hiss etdim”, – deyib gənc həmkarımız. Onun fikrincə, təhsil dövründə qazandığı biliklər xidmətdə verdiyi qərarların əsasını təşkil edir.

### *Gənclərə tövsiyəsi*

O hesab edir ki, polis olmaq istəyən gənclər yalnız arzuyla kifayətlənməməli, qarşıya qoyduqları məqsədə çatmaq üçün davamlı şəkildə öz üzərlərində işləməlidirlər. Fiziki hazırlıqla yanaşı, təhsilə ciddi yanaşmaq, səbirli və məsuliyyətli olmaq bu peşənin vacib tələblərindəndir: “ Bu şərəfli yolda vicdanla və qətiyyətlə addımlamaq lazımdır. Mən özüm də bu yoldan keçmişəm və bilirəm ki, həm namizədlik dövründə, həm də Akademiyada müəyyən çətinliklər olur. Lakin məqsəd varsa, nəticə də olacaq. Ən vacibi öz üzərində işləməkdir. Həm fiziki cəhətdən hazır olmaq, həm də dərslərə ciddi yanaşmaq lazımdır. Polis kimi yalnız biliyə yox, səbirə və düzgün qərar vermək bacarığına da ehtiyac var.”

S.Abduləzizov Akademiyada qazandığı bilik və bacarıqları bu gün real xidmət təcrübəsi ilə möhkəmləndirir. Bir vaxtlar uşaqlıq arzusu olan polis peşəsi bu gün onun üçün şərəfli xidmətə, böyük məsuliyyətə və vətəndaş qarşısında mühüm öhdəliyə çevrilib.

Qarşıda isə peşəkarlıqla möhkəmlənəcək xidmət yolu, yeni sınaqlar və dövlətə sədaqətlə davam edəcək məsuliyyətli bir gələcək dayanır.

# Polisin növbəti əməliyyatı

## Narkotiklərin qanunsuz dövriyyəsinin qarşısı alınıb

Xaçmaz Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdiyi tədbirlərlə narkotik tərkibli bitkilərin kultivasiyası, satışı və saxlanılması ilə məşğul olan E.Ələskərov, İ.İlyasov, F.Əliyarov, S.Şıxıyev, R.Xurşudov, İ.Paşayev və P.Xurşudov saxlanılıblar. Həmin şəxslərdən ümumi çəkisi 40 kiloqram olan 67 ədəd narkotik tərkibli kol və 3 kiloqram müxtəlif növ narkotik vasitə aşkarlanıb.

Yardımlı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. Tədbirlərlə qeyd edilən cinayət əməlini törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş 51 yaşlı Ş.Alıyev saxlanılıb. Ondan ümumilikdə 8 kiloqramdan artıq narkotik vasitə və 180 ədəd psixotrop tərkibli həb aşkarlanıb.

Həmçinin paytaxtın Xəzər Rayon Polis İdarəsi 3-cü Polis Şöbəsi əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əməliyyat keçirilib. Tədbir zamanı narkokuryerlik etməkdə şübhəli bilinən 26 yaşlı V.Cəbrayılov saxlanılıb. Ondan ümumilikdə 33 kiloqrama yaxın narkotik vasitə aşkarlanıb. Araşdırmalarla müəyyən edilib ki, saxlanılan şəxs narkotikləri ayrı-ayrı ünvanlara çatdıraraq paytaxt ərazisində qanunsuz dövriyyəsini təşkil etməyi planlaşdırıb.

Faktlarla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə saxlanılan şəxslərin hər biri barəsində həbs qətimkan tədbiri seçilib.

# Qaydalara məhəl qoymadı

## Avtoxuliqanlıq edən motosiklet sürücüsü həbs edildi

Bakı Şəhər BPİ DYP İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində paytaxt ərazisində yol hərəkəti qaydalarını davamlı şəkildə pozaraq digər hərəkət iştirakçılarının da sağlamlığı üçün real təhlükə yaradan motosiklet sürücüsü Ş.Qasımov saxlanılıb. Sürücü barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən inzibati protokol tərtib edilərək baxılması üçün aidiyyatı məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə Ş.Qasımovun sürücülük hüququ 1 il müddətinə məhdudlaşdırılıb və o, inzibati qaydada həbs edilib.

# Oğruların ifşası

## Gizli əməlləri aşkar edildi

Paytaxtın Sabunçu rayonu ərazisində yerləşən marketlərdən silsilə oğurluq hadisələri qeydə alınıb. Daxil olmuş məlumatlar əsasında Sabunçu Rayon Polis İdarəsinin 14-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməlləri törətməkdə şübhəli bilinən 30 yaşlı S.İbrahimzadə və 23 yaşlı X.Abbasov müəyyən olunaraq saxlanılıblar.

Araşdırmalarla onların gecə saatlarında marketlərə daxil olaraq ümumilikdə 900 manat nağd pul və 4600 manat dəyərində tütün məmulatları oğurladıqları müəyyən edilib.

Binəqədi rayonunda da marketlərin birindən oğurluq etməkdə şübhəli bilinən əvvəllər narkotiklə əlaqəli cinayətə görə məhkum olunmuş 26 yaşlı C.Cəlilzadə müəyyən edilərək saxlanılıb.

Faktlarla bağlı araşdırmalar davam etdirilir.

# Özünü maskalamağa çalışsa da...

## Polis növbəti oğurluğun üstünü açıb



Şirvan şəhərində yerləşən inşaat materiallarının satışı mağazalarının birindən 18 327 manat və 800 ABŞ dolları oğurlanması barədə polisə məlumat daxil olub. Şirvan şəhər Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdiyi tədbirlərlə əməli törətməkdə şübhəli bilinən əvvəllər də məhkum olunmuş 35 yaşlı V.Əhmədov saxlanılıb. Saxlanılan şəxsin həmin mağazadan oğurluq etməyi qabaqcadan planlaşdırdığı, hadisə zamanı isə maska və əlcəkdən istifadə etdiyi müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanılıb, V.Əhmədov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Səs də iz buraxır

## Bir neçə saniyəlik səs mühüm ipucuna çevrilə bilər

**İnsan danışarkən yalnız sözləri ilə deyil, səsi ilə də müəyyən izlər buraxır. Səsin tonu, tembri, danışıq tempi, tələffüz xüsusiyyətləri, söz seçimi və nitq vərdişləri cinayətlərin araşdırılması zamanı əhəmiyyətli məlumat mənbəyi ola bilər. Xüsusilə telefon danışıqları, səsli mesajlar və digər audio materiallar hadisənin ayrı-ayrı məqamlarının aydınlaşdırılmasına kömək edir.**

Cinayət işi üzrə araşdırma zamanı səs yazısının kimə məxsus olması, onun üzərində hər hansı dəyişiklik aparılıb-aparılmaması, eləcə də danışığın hansı xüsusiyyətləri əks etdirməsi xüsusi tədqiqat tələb edə bilər. Bu zaman səs ekspertizasının imkanlarından istifadə olunur. Qulaq üçün adi danışıq təsiri bağışlayan bir neçə saniyəlik səs belə mütəxəssis üçün əhəmiyyətli tədqiqat obyektidir.

### *Səsin özündə gizlənən fərdi xüsusiyyətlər*

İnsanların səsləri bir-birindən yalnız qalın və ya incə olması ilə fərqlənmir. Danışıq prosesində formalaşan çoxsaylı xüsusiyyətlər nitqin fərdiliyini müəyyənləşdirir. Səsin tembri, ritmi, intonasiyası, danışıq sürəti, sözlərin tələffüzü və ayrı-ayrı səslərin deyilişi bu xüsusiyyətlər sırasındadır. Bəzən şəxs səsini dəyişdirməklə tanınmayacağını düşünə bilər. Lakin uzun müddət ərzində formalaşmış danışıq vərdişlərinin hamısını eyni vaxtda dəyişmək asan deyil. Səslə yanaşı, söz seçimi, cümlələrin quruluşu, danışıq tempi və pauzalardan istifadə kimi xüsusiyyətlər də araşdırma zamanı nəzərə alına bilər.

Səs ekspertizasının imkanları yalnız danışanın müəyyənləşdirilməsi ilə məhdudlaşmır. Audio materialın texniki vəziyyəti, keyfiyyəti, bütövlüyü və mümkün müdaxilə əlamətləri də tədqiq oluna bilər. Əldə edilən nəticələr isə iş üzrə digər sübut və məlumatlarla birlikdə qiymətləndirilir.

### *Bir telefon danışığının arxasında nələr dayanır?*

Mütəxəssislər hesab edirlər ki, telefon danışığı zamanı səslənən sözlər bəzən hadisənin təfərrüatlarının müəyyənləşdirilməsində mühüm əhəmiyyət qazanır. Danışığın vaxtı, müddəti, iştirakçıları və məzmunu araşdırmanın müxtəlif istiqamətlərinə aydınlıq gətirir. Müxtəlif şəxslər arasında telefon əlaqələrinin öyrənilməsi hadisələrin xronologiyasının qurulmasına, müəyyən məlumatların nə vaxt ötürüldüyünün və şəxslər arasında əlaqənin olub-olmadığının müəyyənləşdirilməsinə kömək edir. Lakin təkcə məsələ yalnız danışığın məzmunu deyil. Audio materialın əldə edilmə şəraiti, texniki xüsusiyyətləri və tədqiqat üçün yararlılığı da əhəmiyyət daşıyır. Yazıya sonradan müdaxilə edilib-edilməməsi, ayrı-ayrı hissələrin kəsilməsi və ya birləşdirilməsi ehtimalı ekspertiza qarşısında qoyulan məsələlər sırasında yer alır. Bu baxımdan səs yazısı digər sübutlardan ayrı qiymətləndirilməlidir. Onun əhəmiyyəti çox vaxt başqa fakt və sübutlarla müqayisə edildikdə daha aydın üzə çıxır.

### *Səssiz qalmayan texniki detallar*

Audio yazının özü də müəyyən məlumatlar daşıyır. Yazının keyfiyyəti, fon səsləri və digər texniki xüsusiyyətlər araşdırma zamanı diqqətdə saxlanılır. Bəzən danışanın sözləri ilə yanaşı, arxa planda eşidilən səslər də hadisənin baş verdiyi şərait barədə əlavə məlumat verə bilər. Küçə və nəqliyyat səsləri, qapının açılıb-bağlanması, müxtəlif cihazların səsi və digər fon elementləri araşdırma üçün yeni istiqamətlərin müəyyənləşdirilməsinə kömək edir. Belə detallar digər materiallarla müqayisə olunur və hərtərəfli araşdırmadan sonra qiymətləndirilir.

Müasir rəqəmsal texnologiyalar audio materialların tədqiqinə yeni imkanlar yaradıb. Səs fraqmentlərinin müqayisəsi, texniki göstəricilərin araşdırılması və yazının xüsusiyyətlərinin daha dəqiq təhlili ekspertlərin imkanlarını genişləndirir. Bununla yanaşı, süni intellekt və digər rəqəmsal vasitələrlə real insan səsinə bənzər saxta audio materialların hazırlanması yeni çağırışlar yaradaraq belə yazıların həqiqiliyinin müəyyənləşdirilməsini daha da aktuallaşdırır.

Cinayətlərin araşdırılmasında mühüm prinsiplərdən biri faktların ayrı-ayrılıqda deyil, qarşılıqlı əlaqədə qiymətləndirilməsidir. Səs ekspertizasının nəticələri də digər sübutlardan təcrid olunmuş şəkildə qəbul edilmir. Hadisə yerindən götürülən izlər, kamera görüntüləri, sənədlər, şahid ifadələri və digər materiallarla birlikdə audio məlumatlar hadisənin daha dolğun mənzərəsinin yaradılmasına kömək edir. Bəzən cinayət törədən şəxs adi telefon zənginin, qısa səsli mesajın və ya başqa bir audio materialın sonradan istintaq üçün əhəmiyyət daşıyacağını nəzərə almır. Halbuki insanın danışığı yalnız eşidilən sözlərdən ibarət deyil. Səsdə, danışıq tərzində, istifadə olunan ifadələrdə, pauzalarda və fon səslərində araşdırma üçün əhəmiyyət kəsb edən detallar qalır.



Kriminalistikanın əsas vəzifələrindən biri hadisənin qoyduğu izləri aşkar etmək və onları elmi üsullarla düzgün qiymətləndirməkdir. Bəzən belə iz hadisə yerində, bəzən kamera görüntüsündə, bəzən isə cəmi bir neçə saniyəlik səs yazısında qalır.

Səs də belə izlərdən biridir. Onun peşəkar və obyektiv tədqiqi hadisənin naməlum məqamlarının aydınlaşdırılmasına, faktlar arasındakı əlaqənin müəyyənləşdirilməsinə və istintaqın düzgün istiqamətləndirilməsinə mühüm töhfə verir.

*Aytən Tahirova*

# Yenə zirvədə

## Yol polislərimiz müsabiqədə birincilik qazanıblar



Belarus Respublikasında yol patrul xidməti əməkdaşları arasında peşəkar ustalıq üzrə 25-ci yubiley müsabiqəsi keçirilib. Beynəlxalq yarışda 3 ölkəni təmsil edən 10 komandanın tərkibində 42 əməkdaş peşəkarlıq və fiziki hazırlıq bacarıqlarını nümayiş etdirib.

Azərbaycanı müsabiqədə Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin əməkdaşları polis mayoru Emil İbrahimov və polis baş leytenantı Nicat Əliyev təmsil edib. Müsabiqə çərçivəsində iştirakçılar ilk tibbi yardım, patrul avtomobili ilə manevretmə, fiziki hazırlıq, atəş hazırlığı və polis triatlonu üzrə güclərini sınayıblar.

Gərgin mübarizə şəraitində keçən yarışın yekununda polis mayoru Emil İbrahimov şəxsi birincilikdə bütün rəqiblərini qabaqlayaraq birinci yerə layiq görülüb. Azərbaycan təmsilçiləri komanda hesabında da birinci yeri tutaraq müsabiqənin qalibi olublar.

# İnsan alverinə qlobal zərbə

## Əməliyyat 59 ölkənin iştirakı ilə keçirilib



İnsan alveri insanların həyatına, hüquq və azadlıqlarına ciddi təhlükə yaradan, sərhəd tanımayan cinayətdir. Cinayətkar şəbəkələr sosial və maddi çətinliklərdən, iş axtarışından və daha yaxşı həyat arzusundan istifadə edərək insanları müxtəlif formalarda istismar edirlər. Buna görə də bu cinayətə qarşı mübarizə beynəlxalq hüquq-mühafizə əməkdaşlığının əsas istiqamətlərindəndir.

Bu məqsədlə keçirilən "Global Chain" ("Qlobal Zəncir") əməliyyatında 59 ölkənin hüquq-mühafizə orqanları iştirak edib. "INTERPOL", "EUROPOL", "FRONTEX" və "AMERİPOL"un koordinasiyası ilə aparılan tədbirlər nəticəsində 2070 potensial qurban müəyyənləşdirilib, 1024 şübhəli şəxs saxlanılıb və 465 yeni araşdırma başlanıb. Saxlanılanlardan 334-ü insan alveri, 690-ı isə digər əlaqəli cinayətlərlə bağlı olub. Polis və sərhəd bölmələri keçid məntəqələrində, hava limanlarında, nəqliyyat qovşaqlarında və riskli ünvanlarda yoxlamalar aparıblar. Əməliyyat zamanı cinsi istismar, məcburi əmək, cinayət fəaliyyətinə və dilənçiliyə məcburetmə halları aşkarlanıb. Qurbanların bir qismi aldadılaraq, digərləri isə təzyiq və məcburiyyət yolu ilə istismar şəbəkələrinə cəlb edilib. Braziliya Federativ Respublikasında insanları Kambocaya apararaq onlayn dələduzluğa məcbur edən transmilli şəbəkə ifşa olunub və 406 potensial qurban müəyyənləşdirilib. Belçika Krallığında isə sosial şəbəkələr vasitəsilə azyaşlı qızları cəlb edib istismar etməkdə şübhəli bilinən şəxslər saxlanılıb.

Bu faktlar insan alverinin rəqəmsal platformalar vasitəsilə də həyata keçirildiyini göstərir. Cinayətkarlar sosial şəbəkələrdə, onlayn elanlarda və digər platformalarda saxta iş və yüksək gəlir vədləri ilə qurbanların etimadını qazanır, daha sonra onları nəzarətə götürərək istismar edirlər.

Transmilli şəbəkələrin fəaliyyətinə qarşı effektiv mübarizə yalnız beynəlxalq əməkdaşlıqla mümkündür. "Global Chain" əməliyyatı minlərlə potensial qurbanın müəyyənləşdirilməsi, yüzlərlə şübhəlinin saxlanılması və yeni araşdırmaların başlanması ilə bu əməkdaşlığın əhəmiyyətini bir daha göstərib.

# Polisin silah arsenalı

## Dünyada polis hansı silah və xüsusi vasitələrdən istifadə edir?




İctimai asayişin qorunması, cinayətkarlıqla mübarizə və insanların təhlükəsizliyinin təmin edilməsi polis əməkdaşlarının əsas vəzifələrindəndir. Lakin istifadə olunan silahlar və xüsusi vasitələr bütün ölkələrdə eyni deyil. Hər bir dövlət öz qanunvericiliyinə, təhlükəsizlik mühitinə və polis xidmətinin xüsusiyyətlərinə uyğun təchizat sistemi formalaşdırır.

### ►*Türkiyə – müxtəlif təyinatlı silah və texnika*

Türkiyə Respublikasında polis əməkdaşlarının istifadə etdiyi silah və avadanlıqlar xidmətin xarakterinə və bölmənin vəzifəsinə görə dəyişir. Polis Xüsusi Hərəkatı (PÖH) bölmələri yüksək riskli əməliyyatlar üçün "MP5", "MPT-55" və "MPT-76" kimi silahlarla təchiz olunur. İctimai tədbirlərdə isə su şırnaqlı zirehli "TOMA" maşınlarından və digər xüsusi vasitələrdən istifadə edilir.

### ►*ABŞ – hər polis qurumunun öz standartı var*

ABŞ-da vahid milli polis sistemi olmadığından polis qurumlarının istifadə etdiyi silah və avadanlıqlar fərqlənir. "Glock" və "SIG Sauer" tapançaları müxtəlif polis qurumlarında geniş istifadə olunur. Yüksək riskli vəziyyətlərdə "AR-15" patrul karabinlərindən, həmçinin "Taser" elektroşokerindən, bibər spreyi, dəyənək, qandal və qoruyucu jiletlərdən istifadə edilir.

### ►*Böyük Britaniya – odlu silahsız xidmət ənənəsi*

Birləşmiş Krallıqda patrul xidmətində çalışan polis əməkdaşlarının böyük əksəriyyəti gündəlik olaraq odlu silah daşımır. Odlu silah tələb olunan hallarda xüsusi hazırlıq keçmiş silahlı polis əməkdaşları hadisə yerinə cəlb edilir. Digər əməkdaşların xidmətində dəyənək, kimyəvi təsirli sprey, qandal və bəzi hallarda "Taser" elektroşokerindən istifadə olunur.

### ►*Almaniya – bölmələrə görə dəyişən təchizat*

AFR-də polis qüvvələrinin silah və avadanlıqları bölmələrin vəzifələrinə görə dəyişir. Müxtəlif xidməti tapançalardan və uzun lüləli silahlardan istifadə olunur. "Heckler und Koch P30" tapançası federal polis tərəfindən istifadə olunan xidməti silahlardan biridir. Təchizata qoruyucu jiletlər, qandal, dəyənək və digər xüsusi vasitələr də daxildir.

### ►*Fransa – yüksək riskli əməliyyatlara uyğun xüsusi hazırlıq*

"RAID" Fransa Milli Polisinin xüsusi müdaxilə bölməsidir. Bölmə terrorçuluq, mütəşəkkil cinayətkarlıq və yüksək riskli silahlı insidentlər zamanı fəaliyyət göstərir. RAID yüksək dəqiqlikli atıcılar, danışıqlar üzrə mütəxəssislər və digər ixtisaslaşmış qruplarla yanaşı, xüsusi taktiki silah olan FAMAS avtomatından və digər avadanlıqlardan istifadə edir.

### ►*Kanada – müxtəlif polis qurumlarının fərqli təchizatı*

Kanadada polis qurumlarının istifadə etdiyi silah və avadanlıqlar fərqlənir. Kanada Kral Atlı Polisi (RCMP) əməkdaşlarının hazırlığında 9 millimetrlik yarımavtomatik Glock 45 MOS tapança, 12 kalibrli tüfəng və C -8 patrul karabini yer alır. Təchizatda "Taser", bibər spreyi, dəyənək və digər müdaxilə vasitələrindən də istifadə olunur.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik